### 050607 – Elektrik və elektronika mühəndisliyi

Elektrik və elektronika mühəndisliyi ixtisası sənayenin bütün sahələrində elektrik enerjisi təchizatı sistemlərinin, sənaye elektrik və elektron avadanlıqlarının, elektron qurğuların layihələndirilməsi, istehsalı və texniki istismarı uzrə mütəxəssis hazırlığını nəzərdə tutur.

Elektrik və elektronika mühəndisliyi ixtisasının tələbələri mənimsədikləri bilik və bacarıq nəticəsində elektrik stansiyalarının, sənaye müəssisələrinin eneji təminatı sistemlərinin layihələndirilməsi və qurulmasında, eləcə də sənayenin bütün sahələrində elektrik və elektron avadanlıqlarının layihələndirilmə üsulları, istehsalı və texniki istismarı texnologiyaları sahəsində yuksək ixtisaslı mutəxəssislər kimi formalaşırlar.

Bu ixtisası bitirmiş məzunlar yiyələndikləri peşə kompetensiyaları sayəsində müasir elektrik stansiyalarının, sənaye müəssisələrinin elektrik enejisi ilə təminatı sistemlərinin layihələndirilməsi və qurulması, həmçinin elektrik və elektron avadanlıqlarının layihələndirilməsi və konstruksiya edilməsi, istehsal texnologiyaları və texniki istismar məsələləri ilə məşğul olacaqlar.

Elektrik və elektronika mühəndisliyi ixtisasını müvəffəqiyyətlə bitirmiş məzunlar xalq təsərrüfatının və sənayenin müxtəlif təyinatlı sahələrində, o cumlədən energetika, nəqliyyat, neft-qaz sənayesi, ümumi və xüsusi təyinatlı maşın və elektronika istehsalı, mürəkkəb elektron-idarəetmə sistemlərin istismarı ilə məşğul olan muəssisə və şirkətlərdə mühəndis-elektrik, mühəndis-elektronçu, mühəndis-konstruktor kimi müxtəlif vəzifə və peşələrdə çalışmaq imkanına malik olacaqlar.